**Azərbaycan Respublikasının Prezidenti yanında**
**ELMİN İNKİŞAFI FONDU**

**Qalib qrant layihələri üzrə istifadə üçün elmi cihaz və avadanlıqların satınalınması məqsədilə**

AÇIQ TENDER ELAN EDİR

Lot - 1. Qalib qrant layihəsi üzrə isitfadə üçün elmi cihazın satınalınması
Lot - 2. Qalib qrant layihəsi üzrə isitfadə üçün elmi cihaz və avadanlıqların satınalınması
Lot - 3. Qalib qrant layihəsi üzrə isitfadə üçün elmi cihaz və avadanlıqların satınalınması
Tender iştirakçılarına təklif edilir ki, "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq yuxarıda göstərilən lotlar üzrə öz tender təkliflərini möhürlənmiş, imzalanmış ikiqat bağlamada yazılı surətdə təqdim etsinlər.
Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi, analoji işlərdə təcrübəsi və maliyyə vəziyyəti.
Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyənlər lotlar üçün aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Y.Səfərov küçəsi, 27, 9-cu mərtəbə (Tender komissiyası, telefon 489-08-94 səlahiyyətli şəxs Ədilə Babayeva) ala bilərlər.
İştirak haqqı:
Lot -1: 150 manat
Lot -2: 30 manat
Lot -3: 10 manatdır.
Tenderdə iştirak haqqı bu hesaba köçürülməlidir:
Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu
VÖEN: 1701102761
Dövlət Xəzinədarlığı Agentliyi
Bankın VÖEN-i: 1401555071
H/h: AZ29CTRE00000000000005428301
m/h: AZ41NABZ01360100000000003944
Bankın kodu: 210005
S.W.I.F.T. CTREAZ22
İştirak haqqı heç bir halda geri qaytarılmır.
İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- tenderdə iştirak etmək üçün yazılı müraciət;
- tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;
- iddiaçının tam rəsmi adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;
- tender təklifi (zərflərin açıldığı tarixdən ən azı 30 bank günü qüvvədə olmalıdır);
- tender təklifi qiymətinin 1 faizi həcmində bank zəmanəti (təklifin təminatı) (zərflərin açıldığı tarixdən ən azı 60 bank günü qüvvədə olmalıdır);
- vergilərə və digər icbarı ödənişlərə dair yerinə yetirilləsi və vaxtı keçmiş öhdəliklərinin olmaması haqqında müvafiq orqandan arayış;
- iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;
- iddiaçının işləri yerinə yetirmək üçün potensial imkanları haqqında məlumat və müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə edilməli və təsdiq olunmalıdır). Tender proseduru "Dövlət satınalmaları haqqında" Qanuna uyğun keçiriləcəkdir.
İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) 08 iyul 2016-cı il saat 11.00-a qədər, tender təklifi və bank zəmanətini isə möhürlənmiş ikiqat zərfdə 15 iyul 2016-cı il saat 17.00-a qədər Azərbaycan Respublikasının

Prezidenti yanında Elmin İnkişafı Fonduna (Bakı şəhəri, Y.Səfərov küçəsi, 27, 9-cu mərtəbə) təqdim etməlidirlər.
Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.
İddiaçıların təklifləri 18 iyul 2016-cı il tarixində saat 10.00-da yuxarıda göstərilən ünvanda açılacaqdır. İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

Tender komissiyası

* Elan 09 iyun 2016-cı il tarixində "Xalq Qəzeti"-ndə dərc olunmuşdur, №124 (28217), səh.7

---

Lot 1. Qalib qrant layihəsi üzrə istifadə üçün elmi cihazın satınalınması

| S.s. | Cihazın adı | Ölçü vahidi | Miqdarı | Vahidinin qiyməti, manatla | Məbləğ, manatla |
|---|---|---|---|---|---|
| 1 | **CFX96 Touch™ Real-Time Polymerase Chain Reaction (PCR) Detection System (Bio-Rad Laboratories, Inc.) Real zaman polimeraz zəncirvari reaksiya təyini sistemi CFX96 Touch™ (Bio-Rad Laboratories, Inc. istehsalı)** | ədəd | 1 | | |

Lot 2. Qalib qrant layihəsi üzrə istifadə üçün elmi cihaz və avadanlıqların satınalınması

| S.s. | Cihaz və avadanlıqların adı | Ölçü vahidi | Miqdarı | Vahidinin qiyməti, manatla | Məbləğ, manatla |
|---|---|---|---|---|---|
| 1 | **Voltmetr: Fluke 8846A (ayırdetmə 6.5 rəqəm)** | ədəd | 1 | | |
| 2 | **Maqnit qarışdırıcısı: Рива -01** | ədəd | 1 | | |
| 3 | **Analitik tərəzi: PGL 203 (200qr-0,001qr)** | ədəd | 1 | | |
| 4 | **Laboratoriya presi: Atlas Manual 25T** | ədəd | 1 | | |
| 5 | **Vakuum-meter: Мерадат – ВИТ19ИТ2** | ədəd | 1 | | |

Lot 3. Qalib qrant layihəsi üzrə istifadə üçün elmi cihaz və avadanlıqların satınalınması

| S.s. | Cihaz və avadanlıqların adı | Ölçü vahidi | Miqdarı | Vahidinin qiyməti, manatla | Məbləğ, manatla |
|---|---|---|---|---|---|
| 1 | **Quruducu şkaf SP-30 28 litr** | ədəd | 1 | | |
| 2 | **Kompakt soyuduçu İndesit TT85** | ədəd | 1 | | |
| 3 | **Maqnit qarışdırıcısı: Рива-03.2** | ədəd | 2 | | |